

# 20 Yanvar faciəsi “Vətən səsi” qəzetinin səhifələrində

*1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə ölkəmizin paytaxtı Bakı şəhərində Sovet ordusu tərəfindən həyata keçirilən və günahsız insanların qətli ilə nəticələnən terror aktı həmin illərin dövri mətbuatında öz əksini tapdı. “Vətən səsi” qəzetinin 16 yanvar 1991-ci il sayında gedən Teymur Əhmədovun “Yanvar faciəsi” baş məqaləsi Ümumxalq Hüzn Gününün birinci ildönümünə həsr olunub. Müəllif həmvətənlərinə xitabən deyir: Azərbaycanın müqəddəs torpağında əbədi uyuyan şəhidlərimiz xalqımızın azadlığı və istiqlaliyyəti sorağında pərvazlanan ilk durna qatarı idilər ki, kəmfürsət yağı güllələrinə tuş oldular. Onların romantik arzu və ideallarının həyata keçməsində hər birimizin borcu var. Bu gün onların məzarı önündə qəhər bizi boğsa da, kədər qəlbimizi sıxsa da məğrur və təmkinli olmalıyıq. Vətənimizə xaincəsinə sui-qəsd zamanı tökülən günahsız qanlar xalqımızı Azərbaycanın birliyi və suverenliyi naminə sıx birləşdirməlidir. Şəhidlərin məzarı qarşısından aram-aram, sakitcə ötüb keçəndə “Allah sizə rəhmət eləsin, nisgilli durnalar, qəbriniz nurla dolsun” deməyi unutmayın, əziz həmvətənlər...*

*Şəhidlər Xiyabanı bizim səcdəgahımızdır. Hələ 1918-ci ildə bu torpağa tapşırılan yüzlərlə şəhidlərin ili tamam olanda Milli Şuranın rəisi Məmməd Əmin Rəsulzadə həmvətənlərinə demişdir:*

*“... Şühadə qəbri üzərinə gedib də fatihə verməyi unutmayasınız. Onlar - o böyük vücudlar tam vaxtında bir məleykəyi-nicat kimi yetişərək özləri öldülər, fəqət bizi ölümdən qurtardılar. Onlar - bu ölümlü istehkar edən böyük adamlar bizə yaşamaq üçün ölmənin nə məsud nə şanlı, nə şərəfli bir xislət olduğunu öyrətdilər. Onlar - o fədakar insanlar, Azərbaycan Cümhuriyyətinin payidar olmasına, məmləkətimizin cəllad ciyəsindən qurtulmasına səbəb oldular!”.*

*1918-ci ildə Bakıda faciəli mart hadisələrindən sonra ölüm kabusu Şamaxı, Quba, Göyçay, Kürdəmir, Gəncə üzərindən keçmişdir. Dinc əhali qırğına, əzab və işgəncələrə məruz qalmışdır. Üzeyir Hacıbəyov demişkən “bitməz-tükənməz cəbbəxanası olan cəlladlara qarşı əliboş müsəlman nə edə bilərdi?”.*

*Bəli, öz evimizdə sahibi-ixtiyar olsaydıq, belə olmazdı və hər cür gözlənilməz təhlükələrin qabağını vaxtında ala bilərdik.*

*72 il sonra faciə yenidən baş verdi. Bakının girəcək yollarında fürsət gözləyən ehtiyatda olan hərbçilərdən təcili düzəldilmiş ordu gecəyarı qəfil hücum edib dinc əhalini qanına qəltan etdi. Onlar kiçik çaplı avtomatlardan ölüm saçan 5,45 millimetrlik güllə ilə şəhərin meydan və küçələrini insan qanına boyadılar. O iblis gülləsi ilə ki, Sovet Silahlı Qüvvələrinin 40-cı Ordu hissələri onu əfqan torpağında sınaqdan keçirmişdi. İndi elə bil ki, poliqon buraya - Odlar yurduna köçürülmüşdü. 1990-cı il yanvarın 20-də 5,45 mm dağıdıcı, məhvedici, dəhşətli güllə Bakıda dinc əhaliyə qarşı “səxavətlə” tətbiq edildi ki, bu heç bir beynəlxalq etikaya və hüquqi normalara sığmır. Azərbaycanın bir sıra rayonlarında da ölüm kabusu tüğyan etdi. O, qanlı-qadalı yanvar illərdən bəri hamının qəlbində dərin kök salmış inam və etiqadı məhv etdi.*

*Onlar heç zaman unudulmayacaq. Qədirbilən xalqımız Şəhidlər Xiyabanında əzəmətli, monumental xatirə abidəsi ucaldacaq, beləliklə öz nakam oğul və qızlarına həmişəyaşarlıq ömrü verəcəkdir. Lakin ən böyük ölməzlik timsalını şəhidlər özləri yaratdılar: onların əlisilahsız halda hərbi texnikanın dəmir axını qabağında sinələrini sipər edib təcavüzə, zorakılığa qarşı durması təəssübkeşlik, vətən qeyrəti çəkmək nümunəsi idi ki, bu, zaman-zaman qəlbimizdə yaşayacaq, bizi birlik, suverenlik və istiqlaliyyət yolunda mübarizəyə səfərbər edəcəkdir”.*

*“Vətən səsi”nin bu sayında gedən müxtəlif janrlarda qələmə alınan 30-a yaxın yazı, 50-yə yaxın şəkil və illüstrasiyalar müstəqilliyə qovuşmaq ərəfəsində Azərbaycan xalqının azadlıq mücadiləsini gələcək nəsillərə ötürən, çatdıran bir sənət əsəri kimi milli mətbuatımızın əbədi yadigarlarındandır.*

*Azərbaycan xalqının yenilməzlik və qəhrəmanlıq rəmzi olan o günü “Vətən səsi” qəzeti özünün səkkiz səhifəsində tarixin yaddaşına həsr etmişdir və tarixə Qanlı Yanvar adı ilə yazılan faciə qurbanlarının xatirəsinə həsr edilmiş möhtəşəm yazılı abidədir!*

*Hadisələrin şahidi görkəmli yazıçı Vidadi Babanlının o zaman “Vətən səsi” qəzetində 20 Yanvar faciəsinin ildönümündə dərc etdirdiyi “Elegiya” adlı şeirini oxuculara təqdim edirik.*

---

***Vidadi Babanlı***

## Elegiya

Bu il at üstündə təhvil oldu il,
Bir qorxu üşütdü ürəyimizi.
Duyduq ki, qaragün uzaqda deyil,
Pusquda dayanıb izləyir bizi.

Heç uzun sümədi bu şəkk arası,
(İnsanın qəribə duyumları var).
Ondoqquzu yanvar, gecə yarısı
Şəhərə gurhagur yeridi tanklar.

Əriş-arğac gəzdi göyü fişənglər,
(O, gələn qadadan ilkin soraqdı).
Dindi avtomatlar, toplar, tüfənglər,
Güllələr fit çalıb yağdı, nə yağdı!

Çırpıb qapıları çılğın cavanlar
Bir anda bayıra yüyrüşdülər
Millət qeyrətini çəkərək onlar
Xəyanət əliylə tora düşdülər.

Atdılar taq-taraq düz oldu hədəf,
Alaq otları tək biçildi insan.
Ah, nə böyük hünər, nə böyük şərəf,
Axdı su yerinə küçələrdə qan.

Susmadı silahlar düz sübhə qədər,
Yazıq anaların yarıldı bağrı.
Atalar ah çəkib baxdı mükəddər,
Daşı-divarı da göynətdi ağrı.

* * *

Azadlıq meydanı çalxalanır daşır,
Bənzəyir Xəzərin təlatümünə.
Qan selə dönüb sahillər aşır,
Qəlblər qan ağlayır bu acı günə.
Üzlərə qəm çöküb gözlərə kədər,
Baxışlarda donub hiddət və qəzəb
Saç yolur, üz cırır, qızlar, gəlinlər.

Sonuncu hədədən gərilib əsəb,
Həzin oxuyan kim, ağı deyən kim,
Yuyur qançır-qançır yanaqları yaş
“Qarov yaranaydı fələk gözlərim
Bu fəci səhnəni görməyəydi kaş!”
Gəlir çiyinlərdə ilk cənazələr.
Təzə təlatümlə çalxalanır meydan.
“Allah aman!” sözü dillərdə əzbər
Qulaqlar tutulur, haraydan-haydan.
Gərib sinəsini əsən yellərə
Şəhid şəkilləri durub yan-yana.
Əyib başlarını bayraqlar yerə
Başsağlığı verir Azərbaycana.
Dağın, dənizin də ağlayır gözü.
Bu el matəminə, vətən yasına.
Ölüm qorxutmasın qoy heç də bizi,
Azadlıq alınır qan bahasına!